KÜRD xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

# DÎPLOMAT

№ 14 (388) 5-11 Iyun, Hezîran, sal, 2017
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiymәti: Hêjaye: 40 qәpik



Səh. 2

Prezident İlham Əliyev "Şahdəniz Mərhələ 2" üçün inşa olunan iki platformadan birinin üst tikililərinin dənizə yolasalma mərasimində iştirak edib


Səh. 7

## Neçirvan Bərzani Vladimir Putinlə görüşdü


Səh. 10

Serok Barzanî pêşwaziya Fermandeyê Hevpeymaniya Navdewletiya Dijî Da'îş li Îraq û Suriye kir


Səh. 16

Езидский депутат призывает назначить в Ниневию гражданского администратора


Səh. 3

1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü Tərtərdə qeyd olundu


Səh. 4

## Şəddadİ Kürd dövləti


Səh. 11

## Rostemê Zal û Feremezê kurê wî -2

## Yeni Azərbaycan Partiyası Daşkəsən rayon təşkilatının IX konfransı keçirildi
Səh. 3

## Nêçîrvan Barzanî: Rêkeftina li gel Rûs neft dê bibe destpêkek nû ji aliyê wuze de!
Səh. 10

## İtirdiyimiz tarixi yurdlar: ZƏNGƏZUR
Səh. 5

## Борьба с ИГ* в восточном Мосуле выгнала из домов около 600 тысяч человек
Səh. 14

## Kürdlər və Kürdüstan
Səh. 6

## Курдские бойцы помогли выбраться из Ракки 3 тыс. мирных жителей
Səh. 15


Səh. 8

## Göyçədə bir kənd vardı


Səh. 7

## Mosulun qərbində yeni bölgələr azad edilib


Səh. 10

## Bendava Azadiyê hate rizgarkirin


Səh. 11

## ENKS: PKK û Heşda Şaibî dixwazin deriyekî sînorî di navbera Iraq û Rojava de vekin

# Prezident İlham Əliyev "Şahdəniz Mərhələ 2" üçün inşa olunan iki platformadan birinin üst tikililərinin dənizə yolasalma mərasimində iştirak edib




"Şahdəniz Mərhələ 2" üçün inşa olunan iki platformadan birinin - yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin iyunun 1-də Bibiheybətdəki Azfen tikinti-quraşdırma sahəsindən Xəzər dənizindəki "Şahdəniz" müqavilə sahəsinə yolasalma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qəri Counz əvvəlcə dövlətimizin başçısına "Şahdəniz Mərhələ 2" və "Cənub Qaz Dəhlizi" layihələri ilə bağlı görülən işlər barədə məlumat verdilər.

"Şahdəniz 2", "Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi", TANAP və TAP layihələrinin daxil olduğu Cənub Qaz Dəhlizi dünyanın ən böyük enerji layihələrindən biridir. Bu dəhliz ilk dəfə olaraq Xəzərdəki ehtiyatları birbaşa Avropanın qaz bazarları ilə bağlayacaq. Bu nəhəng layihənin BP-nin operatorluğu ilə həyata keçirilən hissələri – "Şahdəniz Mərhələ 2" və "Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi" layihələri tamamlanmaq üzrədir və ilk qazın gələn ilə planlaşdırılan nəqli üçün qrafikə uyğun davam edir. Hazırda təchizat-tədarük, mühəndis-layihələndirmə və tikinti işləri də daxil olmaqla, ümumilikdə, bu layihələrin 92 faizdən çox hissəsi tamamlanıb, ümumi dəyəri 13 milyard dollar həcmində olan iri müqavilələr imzalanıb. "Şahdəniz Mərhələ 2" və "Cənub Qaz Dəhlizi" layihələri üzrə indiyədək iştirakçı ölkələrdə 40 min yeni iş yeri açılıb. "Şahdəniz" yatağı üzrə hesablanmış bütün ilkin geoloji qaz ehtiyatı təxminən 1 trilyon kubmetrdən çoxdur. "Şahdəniz Mərhələ 1" çərçivəsində illik hasilat 10 milyard kubmetr qaz və təxminən gündə 50 min barrel kondensat təşkil edir. "Şahdəniz Mərhələ 1" üzrə hasil olunan qaz Azərbaycana, Gürcüstana və Türkiyəyə nəql edilir. "Mərhələ 2" çərçivəsində əsas diqqət ildə 16 milyard kubmetr qaz və gündə 120 min barreldək kondensat əlavə etməklə hazırda istismar olunan lay intervallarında qalan ehtiyatlara yönəlib. Bu layihə çərçivəsində ildə 6 milyard kubmetr qaz Türkiyəyə, 10 milyard kubmetr qaz isə Avropa alıcılarına çatdırılacaq.

"Şahdəniz Mərhələ 2" layihəsi çərçivəsində Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliyadakı milyonlarla istehlakçıya ildə 16 milyard kubmetr qaz nəql edilməsi nəzərdə tutulur. İlk qazın nəqli Gürcüstan və Türkiyəyə gələn il, Avropaya isə 2020-ci ildə gözlənilir. "Şahdəniz" üzrə Hasilatın Pay Bölgüsü haqqında Sazişin 2036-cı ildən 2048-ci ilədək uzadılması "Şahdəniz" yatağının dərin qatlarındakı ehtiyatların gələcəkdə mümkün işlənilməsi üçün yol açır. Azərbaycan və Gürcüstan ərazilərində boru kəməri marşrutu boyunca "Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi" layihəsinin tikinti işləri qrafikə uyğun davam edir. Ümumilikdə, tikinti işlərinin və istismaravermə sınaqlarının 89 faizi artıq tamamlanıb. Boru kəmərinin hidro-sınaq işləri həm Azərbaycanda, həm də Gürcüstanda davam edir.

Onu da deyək ki, ilk dəfə olaraq "Şahdəniz 2" platformalarının tikintisi 100 faiz ölkə daxilində həyata keçirilir. Bu tikililərinin ümumi çəkisi 29200 ton təşkil edir və onlar 16500 boru qovşağından, 881 kilometr kabel xəttindən ibarətdir. Üst tikililərin quraşdırma işləri üç il ərzində tamamlanıb və son dərəcədə yüksək texniki təhlükəsizlik göstəriciləri ilə həyata keçirilib.

Prezident İlham Əliyevə məlumat verildi ki, dənizə yola salınacaq yaşayış blokları və texnoloji təchizat (YBTT) platformasının üst modullarının tikintisi nəzərdə tutulan qrafikdən tez yekunlaşıb. Üst tikililərin quraşdırılması tamamlandıqdan sonra STB-1 barjına yüklənərək dənizə yola salınmağa hazırlıq məqsədilə bu il mayın 8-də tikinti-quraşdırma sahəsinin yanalma körpüsündəki yükləmə çərçivəsinə qaldırılıb. Yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin vahid bir konstruksiya kimi daşınması, sürüşdürmə üsulu ilə dayaq blokunun üzərinə yerləşdirilməsi və quraşdırılması işləri diqqətlə planlaşdırılıb və bu işlərin 5 gün ərzində yekunlaşması nəzərdə tutulur. Üst tikililər artıq öz yerində - suyun 94 metr dərinliyində olan dayaq blokunun üzərinə quraşdırılacaq. Üst tikililərinin çəkisi təxminən 12400 ton təşkil edir. Obyektin uzunluğu 100, eni isə 60 metrdir. Bu konstruksiya 100 nəfərlik yaşayış blokundan, ümumi gücü 60 MVt olan dörd əsas elektrik generatorundan ibarətdir. Platformanın yaşayış blokunda işçilərin istirahəti üçün otaqlar, ofis otaqları, idman zalı yaradılıb. Burada neftçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün hərtərəfli şərait var.

AMEK-Tekfen-Azfen konsorsiumu tərəfindən inşa edilən yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililəri Azfen tikinti-quraşdırma sahəsində yerli infrastrukturdan və obyektlərdən istifadə edilməklə bütövlüklə ölkə daxilində tikilib. Bu konstruksiyanın tikinti işlərinə 5 min nəfərdən çox işçi cəlb edilib. İşçi qüvvəsinin təxminən 90 faizi Azərbaycan vətəndaşları olub. Birinci platformanın üst tikililərinin dənizə yola salınması nəhəng "Şahdəniz 2" layihəsinin uğurla, təhlükəsiz, büdcədən xeyli az vəsait xərcləməklə və qrafikə uyğun başa çatdırılması istiqamətində mühüm bir hadisədir. Xəzərdə ən böyük və ən müasir konstruksiyalardan biri olan bu üst tikililər çox yüksək texniki təhlükəsizlik göstəriciləri ilə inşa edilib.

Prezident İlham Əliyev platforma ilə tanış oldu.

Bu gün dünyada bir çox ölkələrdə dərin iqtisadi böhran yaşanır. Ölkələrin gəlirləri azalır, iqtisadi vəziyyətləri çətinləşir. Belə bir vaxtda Azərbaycan qlobal əhəmiyyətli mühüm layihələrə imza atır. Bu, dövlətimizin başçısının rəhbərliyi ilə yürüdülən siyasətin məntiqi nəticəsidir. Azərbaycanın müasir dövrdə belə qlobal və tarixi layihələri icra etməsi ölkəmizin gəlirlərinin artmasına, xalqın sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Bu layihənin həyata keçirilməsi bir daha sübut edir ki, ölkəmizdə neftdən əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi, nəticədə iqtisadi potensialımızın daha da güclənməsi, dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, "qara qızıl"dan əldə olunan gəlirlərin insan kapitalına çevrilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsasını təşkil edir.

Sonra Prezident İlham Əliyev layihənin işçi heyəti ilə görüşdü. Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Bu gün tarixdə qalacaq. Çünki biz bu gün "Şahdəniz" platformasının üst hissələrini rəsmi qaydada açıq elan edirik. Bir neçə gündən sonra bu nəhəng qurğular dənizə göndəriləcək və "Şahdəniz" yatağında quraşdırılacaq. Bu, böyük tarixi hadisədir. Çox sevindirici haldır ki, bu nəhəng qurğular yüz faiz Azərbaycanda inşa edilibdir. Bir neçə il bundan əvvəl, xüsusilə "Şahdəniz" yatağı üzrə kontrakt imzalananda bunu təsəvvür etmək belə mümkün deyildi.

Onu da qeyd etmək istəyirəm ki, "Şahdəniz" üzrə kontrakt 21 il bundan əvvəl iyun ayında Xəzər neft və qaz sərgisi zamanı imzalanmışdır. Artıq 21 ildən sonra biz bax, bu tarixi günü qeyd edirik. Bütün bu qurğular Azərbaycanda inşa edilib. Mənə verilən məlumata görə, bu qurğuların inşasında çalışanların əksəriyyəti - 90 faizi Azərbaycan vətəndaşları olub. Yəni, bu illər ərzində gözəl kadr potensialı yetişib və bu, əlbəttə, ölkəmizin enerji potensialını, iqtisadi potensialını gücləndirəcək. Çünki təkcə "Şahdəniz-2" layihəsi çərçivəsində əlavə 16 milyard kubmetr qaz, eyni zamanda, kifayət qədər kondensat hasil ediləcəkdir. Hasil ediləcək bütün bu təbii resurslarla bağlı kontraktlar imzalanıb, onların müştəriləri var və inşa edilən Cənub Qaz Dəhlizi vasitəsilə dünya bazarlarına çıxarılacaq.

İcra olunan layihələrin hər biri ayrılıqda tarixi hadisədir - TANAP, TAP, Cənub Qaz Kəməri, "Şahdəniz-2" layihəsi, bu platformaların tikintisi, bu yaxınlarda Heydər Əliyev adına yarımdalma qazma qurğusunun açılışı. Bir daha qeyd edirəm ki, bunların hər biri ayrılıqda tarixi layihədir. Amma bunlara birlikdə baxanda görürük ki, Azərbaycanda nə qədər böyük potensial yaranıbdır.

Sonra çıxışını ingilis dilində davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dedi:

-Bu, həqiqətən də tarixi gündür. "Şahdəniz" müqaviləsinin imzalanmasından 21 il sonra indi biz tarixi əhəmiyyət kəsb edən günü qeyd edirik. Bu gün mən ilk növbədə strateji tərəfdaşımız, uzun illərdir Azərbaycanın yaxşı dostu olan BP-yə təşəkkürümü bildirmək istərdim. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması bizim əməkdaşlığımızın başlanğıcı oldu. Həmin vaxtdan bizimlə birgə çalışmış və çalışmaqda davam edən bir çox şirkətlər var. Sizə xatırlatmaq və məlumat vermək üçün demək istərdim ki, həmin vaxt Azərbaycan xarici neft şirkətlərindən ibarət konsorsiumla "Azəri-Çıraq-Günəşli" müqaviləsini imzaladı və BP sadəcə olaraq onlardan biri idi. O, böyük hissəyə malik idi və böyük tərəfdaşlıq var idi ki, bu gün də bu, müəyyən dəyişikliklərlə davam edir.

BP ilə xüsusi münasibətlər o vaxtdan həmin şirkətin Azərbaycanın enerji bazarında, qlobal enerji bazarında fəal oyunçu olması faktına əsaslanır. O vaxtdan indiyədək tərəfdaşlığımızı strateji tərəfdaşlığa çevirən bir çox başqa müqavilələr imzalanıb. Onlardan biri "Şahdəniz"dir. Növbədə "Dayaz sular" və başqaları var. Bu, tərəfdaşlığın yaxşı göstəricisidir. Biz BP-yə etimad göstəririk. Əminəm ki, BP də Azərbaycana etimad göstərir. Əks halda onlar ölkəmizə bu qədər çox vəsait yatırmazdılar. Cənab Counzun dünən və bu gün qeyd etdiyi kimi, BP-nin fəaliyyət sferasında Azərbaycan bir nömrəli investisiya məkanıdır. Bu isə bizim əməkdaşlığımızı daha da gücləndirir. Dünən qeyd etdiyim kimi, hazırda onlar "Azəri-Çıraq-Günəşli" müqaviləsinin genişləndirilməsi üzərində işləyirlər. Ümidvaram ki, bu, tezliklə olacaq. Bundan əlavə, təkcə "Azəri-Çıraq-Günəşli"də bizim tərəfdaşlığımız 2050-ci ilədək davam edəcək. Əminəm ki, "Şahdəniz"dən nəzərdə tutulandan daha çox qaz istehsal ediləcək. Biz "Azəri-Çırağı" "Əsrin müqaviləsi" adlandırmışdıq, indi isə mən əsrlərin müqaviləsindən danışıram.

Mən, həmçinin Azərbaycana yatırılan investisiyalara və uğurlu fəaliyyətə görə bütün tərəfdaşlarımıza, "Şahdəniz" tərəfdaşlarına və bu nadir qurğunu tikən şirkətlərə bir daha təşəkkürümü bildirmək istərdim. Azərbaycanda fəaliyyət göstərən beynəlxalq komanda ölkəmizin inkişafına kömək edir. Düşünürəm ki, ev sahibi olan ölkə yerli şirkət SOCAR ilə əcnəbi investorlar arasında nadir əməkdaşlıq mühiti yaradır. Bir daha sizi təbrik edirəm. Qarşıdakı illərdə sizə uğurlar arzulayıram.

* * *

Prezident İlham Əliyev və BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qəri Counz "Şahdəniz Mərhələ 2" üçün inşa olunan iki platformadan birinin üst tikililərinin dənizə yola salınmasını bildirən düyməni basdılar.

Sonda xatirə şəkli çəkdirildi.

# Yeni Azərbaycan Partiyası Daşkəsən rayon təşkilatının IX konfransı keçirildi



Yeni Azərbaycan Partiyası (YAP) Daşkəsən rayon təşkilatının IX konfransı keçirildi.Konfransda Milli Məclisin deputatı,YAP siyasi şurasının üzvü Mirkazım Kazımov, Milli Məclisin deputatları Kamran Bayramov,Rövşən Rzayev, Naqif Həmzəyev, YAP Mərkəzi Aparatının məsul işçisi Rafael Gülməmmədov, Qərb bölgəsinin şəhər və rayontəşkilatlarının sədrləri, qonaqlar,270 nəfər konfrans nümayəndəsiiştirak etdi. Konfransının gündəliyinə uyğun olaraq ilk öncə YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyevin təşkilatın ötən dövr ərzində gördüyü işlər barədə hesabat məruzəsi dinlənildi. Sonra təşkilatın Nəzarət-təftiş qrupunun sədri Yaşar Məhərrəmov hesabat məruzəsi ilə çıxış etdi. Məruzələr ətrafında Daşkəsən Rayon İcra Hakimiyyətinin Başçısı Əhəd Abıyev, YAP rayon təşkilatının Qadınlar şurasının sədri Rəna Aslanova, YAP rayon təşkilatının Gənclər Birliyinin sədri Elşən Alıyev, Milli Məclisin deputatları Rövşən Rzayev, Kamran Bayramov, Naqif Həmzəyev, YAP siyasi şurasının üzvü Mirkazım Kazımov, YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyevçıxış edərək YAP Daşkəsən rayon təşkilatının ötən dövr ərzindəki fəaliyyətini yüksək qiymətləndirərək, konfransın işinə uğurlar arzuladılar. Konfransda təşkilati məsələlərə baxılaraq, MeydanəliYolçuyev yenidən YAP Daşkəsən rayon təşkilatına sədr seçildi. Rayon təşkilatına 25 nəfərdən ibarət şura üzvü, 5 nəfərdən ibarət nəzarət-təftiş qrupu da seçildi. Sonda YAP sıralarına yeni qəbul olunan bir qrup gəncə YAP-ın üzvlük vəsiqələri təqdim olundu, onlara qiymətli hədiyyələr verildi.

# 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi günü Laçın rayon sakinləri tərəfindən qeyd olundu

BMT Baş Assambleyasının 1950-ci il iyunun 1-də təşkil etdiyi qadınların beynəlxalq konfransında 1 iyunun dünyada uşaqların müdafiəsi günü kimi qeyd edilməsi qərara alınmışdır. Hazırda dünyanın əksər ölkələrində olduğu kimi, 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü hər il bizim ölkəmizdə də qeyd olunur. Uşaqlar ölkəmizdə əhalinin təxminən 30 faizini təşkil edir. Ölkədə uşaq və yeniyetmələrin təxminən 95 faizi təhsil alır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əlievin Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə 2009-cu il "Uşaq ili" elan olunmuşdur.

Ölkə rəhbərinin hərtərəfli diqqət və qayğısı sayəsində hazırda uşaqların sağlam və hərtərəfli inkişafı üçün ölkəmizdə lazımi şərait yaradılmış, çoxsaylı uşaq sağlamlıq mərkəzləri, uşaq bağçaları, müasir tipli məktəblər və istirahət guşələri fəaliyyətə başlamış, uşaq hüquq və azadlıqlarının etibarlı şəkildə qorunması üçün lazımi hüquqi baza yaradılmışdır. Bununla yanaşı bu sahədə Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkəmizin balaca sakinlərinə, eləcədə yeniyetmə və gənclərinə göstərdiyi diqqət və qayğı nəticəsində ölkəmizdə uşaq və yeniyetmələrin hərtərəfli inkişafı üçün müvafiq məqsədyönlü tədbirlər görülmüşdür.



1 iyun 2017-ci il tarixdə laçınlı məcburi köçkünlərin daha sıx məskunlaşdıqları Ağcabədi rayonunun ərazisindəki Taxtakörpü qəsəbəsində də Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə tədbir keçirilmiş, tədbir iştirakçıları və uşaqlar Rayon İcra Hakimiyyətinin inzibati binası qarşısında ucaldılmış Ulu öndər Heydər Əliyevin büstünü ziyarət etmiş, önünə gül dəstələri qoymuşdur.

Tədbirdə iştirak edən Rayon İcra Hakimiyyətinin məsul işçiləri rayonun balaca sakinlərini, eləcədə bütün tədbir iştirakçılarını 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə təbrik etmiş, bu gün ölkə Prezidenti cənab İlham Əliyevin uşaq və yeniyetmələrə olan diqqət və qayğısı sayəsində hazırda rayonlarda gənclər mərkəzlərinin, ana və uşaq sağlamlıq ocaqlarının, müasir tipli məktəblərin və uşaq bağçalarının tikilib istifadəyə verildiyini bildirmiş və balaca sakinlərimizə sülh, əmin-amanlıq və firavanlıq arzulamışdır.

# 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü Tərtərdə qeyd olundu

1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə Tərtər şəhərində Heydər parkında Tərtər Rayon İcra Hakimiyyətinin və rayon təhsil şöbəsinin təşkilatçılığı ilə möhtəşəm bayram tədbiri keçirildi.

Xüsusi tərtibatla bəzədilmiş parkda keçirilən bayram şənliyində rayonun ümumtəhsil məktəblərinin aşağı sinif şagirdləri ilə birgə rayon ərazisində yerləşən körpələr evi-uşaq bağçalarında tərbiyə alan uşaqlar da iştirak etdilər.

Tədbir Seydimli kənd körpələr evi-uşaq bağçasında tərbiyə alan uşaqların "Sülhə səs verin" şeiri ilə başladı. Havaya sülh göyərçinləri və şarlar qalxdı.

Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov bayram tədbirinə toplaşan çoxsaylı uşaqları salamlayaraq, onları 1 iyun-Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə təbrik etdi. Bildirdi ki, uşaqlar dünyada hamı üçün əzizdir. Dünyanın hər yerində uşaqlara qayğı və onların qorunması xüsusi əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Uşaqların Beynəlxalq Müdafiəsi günü uzun illərdir bütün dünyada qeyd edilir və hər bir ölkə, hər bir dövlət uşaqları qorumağı, uşaqları müdafiə etməyi özünün əsas vəzifəsi hesab edir.

Rayon rəhbəri xüsusi vurğuladı ki, Azərbaycanda uşaqlara xüsusi məhəbbət, xüsusi münasibət vardır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva daim uşaqlara diqqət və qayğı göstərirlər.

Sonra rayon rəhbəri yeni tikilib istifadəyə verilmiş 100 yerlik körpələr evi-uşaq bağçasından, uşaq-gənclər şahmat məktəbindən də söhbət açdı. İstifadəyə verilən obyektlər dövlətimiz tərəfindən uşaqlara göstərilən diqqət və qayğının təzahürü olduğunu bildirdi.



Qeyd olundu ki, rayonun düşmənlə 48 km məsafədə təmas xətti var. Döyüşlərdə insanlarımız şəhid olubdur, qurbanlar vermişik. Təəssüf ki, hələ böyüməmiş, dünyanı görə bilməmiş uşaqlar da bu faciənin qurbanları olublar. 1990-cı il 20 yanvar faciəsində də, Ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilmiş Xocalı soyqırımında da uşaqlar həlak olublar, uşaqlar qurban gediblər. Bunlar hamısı bizi kədərləndirir.

Rayon rəhbəri bu günkü uşaqların XXI əsrdə müstəqil Azərbaycanın qurucuları, yaradıcıları və Azərbaycanı yüksəklərə qaldıranlar olacağını vurğuladı. Bildirdi ki, bugünkü uşaqlar, bugünkü Azərbaycan gəncləri Azərbaycanın xoşbəxt gələcəyini təmin etməyə qadirdirlər.

Sonra uşaqlar maraqlı konsert proqramı ilə çıxış etdilər.

Uşaq Yaradıcılıq Mərkəzinin rəqs dərinəyinin üzvlərinin, Tərtər şəhər 1, 2, 3, 4 saylı və Seydimli kənd körpələr evi-uşaq bağçasının uşaqlarının çıxışları alqışlarla qarşılandı. Tədbirdə iştirak edən ümumtəhsil məktəblərinin aşağı sinif şagirdləri də maraqlı nömrələrlə çıxış etdilər.

Tədbirdə Tərtər şəhər 4 saylı, Seydimli kənd körpələr evi-uşaq bağçalarının, Uşaq Yaradıcılıq Mərkəzinin kollektivləri rayon icra hakimiyyəti, Tərtər şəhər 1 və 2 saylı körpələr evi-uşaq bağçalarının kollektivləri isə rayon təhsil şöbəsi tərəfindən Fəxri Fərmanlarla təltif edildi. Sonda tədbirdə iştirak edən uşaqlara hədiyyələr paylandı.



# Sabunçu rayonunda "1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi günü" ilə əlaqədar musiqili proqram təşkil olundu

Sabunçu Rayon İcra Hakimiyyəti, Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin və Sabunçu rayon Asudə Vaxt Mərkəzinin birgə təşkilatçılığı ilə 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi günü ilə əlaqədar Sabunçu rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 1 saylı filialında tədbir keçirildi.

Tədbirdə Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin rəisi Vuqar Zeynalov, Sabunçu rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Səmərqənd Əlizadə, Mədəni Tədbirlərin Təşkili və Yaradıcı Gənclərlə İş üzrə Mərkəzin direktoru Hacı Əliyev və digər qonaqlar iştirak ediblər.

Sonra Sabunçu rayon Asudə Vaxt Mərkəzinin nəzdində fəaliyyət göstərən vokal dərnəyinin üzvləri Bayramova Ayan, Məmmədov Emin, xanəndəlik dərnəyinin üzvü Muradov Anar, "Meqas" uşaq qrupu, "Xəzri" rəqs ansamblı, mərkəzin məktəbəqədər dərnəyinin kiçikyaşlı üzvləri təqdim etdikləri rəngarəng konsert proqramı ilə tədbirə qatılan çoxsaylı balaca qonaqlara bol əyləncə, bayram əhval ruhiyyəsi bəxş ediblər.

# ŞƏDDADİ KÜRD DÖVLƏTİ

## Sülalənin banisi

**X əsrin 70-ci illərində Azərbaycanın quzeyində Şəddadi kürd dovləti meydana gəldi.** Şəddadilər, əvvəllər Salarilər dövlətinin tərkibində olan Dəbil (Dvin) ətrafında yaşayırdılar. Salarilər dövlətinin zəifləməsindən istifadə edən Məhəmməd ibn Şəddad 951-ci ildə Dəbili ələ keçirlb müstəqil Dəbil (Dvin) əmirliyini yaratmışdı. Soykökünə görə kürd olan Məhəmməd ibn Şəddad və onun varislərinin idarə etdiyi bu Azərbaycan əmirliyi tarixdə Şəddadi kürd dövləti adı ilə tanınır. Sonralar Şəddadilər Salarilər dövlətinin zəifləməsindən istifadə edib 971-ci ildə Gəncəni ələ keçirdilər və Azərbaycan Şəddadilər dövlətinin əsasını qoydular. Çox keçmədən Şəddadilər Gəncə ətrafında olan Bərdə, Şəmkir və b. torqlarda möhkəmləndilər. Ermənistanın şərq hissəsini ələ keçirdilər.

Fəzl ibn Məhəmmədin (985-1030) hakimiyyəti dövründə Şəddadilər dövləti qüvvətləndi.O , Gəncə ətrafındakı bütün xırda mülkləri aradan qaldırıb mərkəzi hakimiyyəti gücləndirdi, Şəddadilərin ata-baba mülkləri olan Dəbili də öz dövlətinə birləşdirdi. Erməni hakimi Şəddadilər dövlətinə bac verməyə məcbur oldu. Bundan başqa Fəzl ibn Məhəmməd gürcülər və xəzərlərə qarşı uğurlu savaş apardı. Onun hakimlyyəti illərində hərbi məqsədlə Araz çayı üzərində salınan beş Xudafərin körpüsü (1027) Azərbaycanın quzey və Güney bölgələri arasında iqtisadi və mədəni əlaqələrin genişlənməsində mühüm rol oynadı.Fəzl ibn Məhəmmədin hakimiyyəti illərində Şəddadilərlə Şivanşahlar arasında da sıx əlaqə yaramışdı. Hər iki sülalə arasında qohumluq münasibətləri vardı. Şəddadilər digər Azərbaycan hakimləri ilə Güneydə hökmdarlıq edən Rəvvadilərlə və Tiflis əmiri Əbülfəzl Cəfər ibn Əli ilə də dostluq münasibətləri saxlayırdılar. XI əsrin 30-cu illərində Arazdan quzeydəki Azərbaycan torpaqlarında yeni-yeni Oğuz boylarının məskən salması Şəddadilərin hərbi qüdrətini daha da artırdı.Dəbili ələ keçirməyə çalışan Bizans-erməni qoşunlarına ağır zərbə vuruldu (1037). Bizans və Gürcüstanın birləşmiş qüvvələrinin Tiflis müsəlman əmirliyini aradan qaldırmaq cəhdi də baş tutmadı (1038). Şəddadilər dövləti Əbul-Əsvar Şavurun (1049-1067) dövründə Gürcüstanla və onun müttəfiqi olan Şirvanşahlar dövləti ilə müharibələr apardı. Şəddadilər dövlətinin qüvvətlənməsindən qorxuya düşən və bu zaman Cəfərilər sülaləsinin idarə etdiyi Tiflis əmirliyini tutmağa çalışan gürcü çarı IV Baqrat alanlarla ittifaq bağladı, 1062-ci ildə alanların Dəryal keçidini aşıb Gürcüstan vasitəsilə Azərbaycana hücum etməsinə şərait yaratdı. Bu zaman Şavur Gəncənin yadellilərə qarşı müdafiəsini möhkəmləndirdi. Bu məqsədlə onun ətrafına hasar və xəndəklər çəkdirdi, şəhərə möhkəm qala




qapıları düzəltdirdi (1063). Şəddadilər bu zaman Dəbili əldən verməmək, habelə onlardan asılı olan Ani əmirliyini müdafiə etmək üçün ermənilərə və onlara kömək edən Bizans imperiyasına qarşı da uğurla mübarizə apardılar. Kiçik Asiyanın şərqində Bizansa qarşı vuruşan Şəddadi qoşunlarının vurucu qüvvəsi oğuz türkləri idi. Bu mübarizədə Şəddadilərin daha qüdrətli müttəfiqi sonralar Səlcuq türkləri oldu.

## Rəvvadilər dövləti ( 981 – 1054 )

Salarilər hakimiyyətinin zəiflədiyi dövrdə qüvvətlənən Təbriz, Marağa və Əhər hakimi Əbülhica 981-ci ildə axırıncı salari hökmdarı İbrahim ibn Mərzbanı (962-981) taxtdan salıb Rəvvadilər dövlətinin əsasını qoydu.Bu sülalənin soykökü qədim ərəb nəsillərindən birinə bşçılıq edirdi.

## Azərbaycan XI-XIII əsrlərdə.Feodal dövlətlərin yaranması

Əsarət altına alınmış xalqların azadlıq mübarizəsi, daxili çəkişmələr, iri feodalların mərkəzi hakimiyyətə tabe olmaması Xilafəti zəiflətdi və onun ərazisində müstəqil dövlətlərin yaranmasına gətirib çıxartdı.İlk əvvəllər imperiyanın ucqarlarında, o cümlədən Azərbaycanda kiçik dövlətlər-əmirlərliklər yarandı (Bərdə, Qəbələ, Şəki və s.).IX əsrin ikinci yarısından başlayaraq Azərbaycan ərazisində Şirvanşah Məzyədilər, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər dövlətləri meydana çıxdı.Onlar ərəb əsarətindən qurtarmağa cəhd edirdilər, buna görə onların yaranması müsbət hal idi.Lakin ölkənin xırda feodal dövlətlərinə parçalanması xarici düşmənlərdən qorunmağı çətinləşdirirdi.

Şirvanşah Məzyədilər dövləti (861-1027)xilafətinin dağılması gedişində yaranan müstəqil dövlətlərdən biri də Şirvanşahlar dövləti idi. Şirvan əvvəllər Azərbaycanın şimalında kiçik bir vilayət idi. Dərbənddən Kür çayına doğru Xəzər dənizi sahillərindəki Azərbaycan torpaqlarını əhatə edirdi. Həmin vilayətin mərkəzi Xəzər sahilində - Şamaxı-Dərbənd ticarət yolunun üstündə yerləşən Şirvan şəhəri idi. Bu dövləti Məzyədilər sülaləsi idarə edirdi. Şirvanşah Məzyədilər sülaləsi tarix ədəbiyyatında bəzən Şeybanilər və ya Yezidilər sülaləsi də adlanır. Məzyədilər kökcə Rəbiə adlı ərəb tayfasından idilər. Hələ xəlifə Osmanın (644-656) zamanında Aranı işğal edən Salman ibn Rəbiə bu tayfanın nümayəndəsi idi. Rəbiə tayfasının Şeybanilər nəslindən olan Məzyədilər Azərbaycanda hələ o zamandan yerləşməyə başlamışdılar. Məzyədilərin görkəmli nümayəndəsi olan Yezid ibn Məzyəd, xəlifə Harun ər-Rəşid zamanı Cənubi Qafqaz vilayətlərinin, o cümlədən Şirvanın hakimi idi. Yezid ibn Məzyəd ərəblərin Azərbaycanda möhkəmlənməsində mühüm rol oynamış, bu yerlərdə gedən döyüşlərdə görkəmli bir sərkərdə kimi ad çıxarmışdı. O, Azərbaycanda Xilafətə dayaq yaratmaq məqsədilə buraya Rəbiə tayfasından, həmçinin Misirdən və Suriyadan çoxlu ərəb köçürmüşdü. Ərəblər, əsasən, Aran, Şirvan və Dərbənddə yurd salmışdılar. Yezid ibn Məzyədin özü də burada çoxlu torpaq mülkləri ələ keçirmişdi. Məzyədilər ilk dəfə Aranda paytaxtı Bərdə olan yarımmüstəqil əmirlik yaratmışdılar. O zaman Bərdə bütün Cənubi Qafqazda ərəb idarəçiliyinin mərkəzi idi. Yezid ibn Məzyədin iqamətgahı da Bərdədə idi. Bütün bu torpaqları o, Şirvan valisi kimi idarə edirdi. Ömrünün sonunadək Azərbaycanda yaşayan Yezid ibn Məzyəd 801-ci ildə Bərdədə ölmüş və burada da dəfn olunmuşdu. Yezid ibn Məzyədin ölümündən sonra onun oğulları

## Əsəd, Xalid və Məhəmməd Cənubi Qafqaz valisi təyin edildilər.

859-cu ildə Məhəmməd ibn Yezi Gəncəni bərpa etdirib öz iqamətgahını bura köçürdü. Məzyədilərin müstəqilliyi artdı, onlar Azərbaycanda daha da möhkəmləndilər.861-ci ildə Məzyədilər sülaləsindən olan Heysam ibn Xalid Şirvanı müstəqil elan edərək "Şirvanşah" titulunu götürdü. 917-ci ildə qonşu Lahicanşahlıq Şirvanşahlar dövlətinə birləşdirildi.Bununla bağlı olaraq Şirvanşah Əbu Tahir (917-948) 918-ci ildə hərbi-strateji baxımdan çox əlverişli mövqedə yerləşən qədim Şamaxını bərpa etdirib paytaxtı Xəzər sahilindəki Şirvan şəhərindən bura köçürdü. Bundan sonra Şirvanşahlar dövlətinin paytaxtı Yezidiyə adlanmağa başladı. Şirvanşahlar dövlətinin müstəqilliyi daha da artdı, ərazisi genişləndi.Şirvanşahın qoşunları Qəbələ (981-982), Bərdə (982) və Şabranı (983) ələ keçirdi. IX əsrdə azadlıq müharibələrinin genişlənməsi səbəbindən Xilafət getdikcə zəifledi.Abbasilər imperiyasının dağılması gedişində Azərbaycanda bir sıra müstəqil feodal dövlətləri meydana gəldi. Belə bir şəraitdə xilafətin işğal etdiyi ölkələrdə yerli hökmdarlıqlar əmələ gəldi və onlar xilafətə tabe olmaqdan boyun qaçırdılar. Babək üsyanı yatirildiqdan sonra, IX-XI əsrlərdə Azərbaycanda yaranmaqda olan feodal dövlətləri ərəblərin hakimiyyətindən imtina edir. Belə dövlətlər sayca çox idilər . Onlardan daha nüfuzluları Şirvanşahlar, Şəddadilər, Sacilər, Salarilər və Rəvvadilər idi.

## Şirvanşahlar dövləti

Şirvanşahlar dövlətinin qurucusu Məzyədilər sülaləsi hesab olunur. Ərəb mənşəli Məzyədilər Rəbiə tayfasının Şeybanilər nəslinə mənsub idilər. Məzyədilər sülaləsinin




görkəmli nümayəndəsi Yezid İbn Məzyəd Abbasilər dövründə Cənubi Qafqazın vı Şirvanın hakimi olmuşdu. Abbasilər xilafətinin zəifləməsindən istifadə edən Yezid İbn Məzyəd paytaxtı Bərdə olan yarımmüstəqil əmirlik qurdu. O, Aran, Şirvan, Dərbənd və Ermənistan ərazilərinin də idarə edilməsini də öz əlinə aldı. Yezid İbn Məzyədin varisləri dövründə Məzyədilər öz müstəqilliklərini daha da qüvvətləndirirlər. 801 – ci ildə Yezid ibn Məzyədin ölümündən sonra varisləri Xalid, Məhəmməd və Əsəd Cənubi Qafqazın hakiminə çevrildilər. Məzyədilər sülaləsinə mənsub Məhəmməd ibn Məzyəd;

859 – cu ildə Gəncəni bərpa edərək Məzyədilərin mərkəzini bura köçürdü.

Məzyədilərin müstəqilliyini artırdı.

Məzyədilərin Azərbaycanda daha da möhkəmlənməsinə şərait yaratdı. Heysam ibn Xalidin dövründə Məzyədilər daha da müstəqilləşdilər. O, 861 – ci ildə şirvanşşah titulunu qəbul edərək Şirvanın mmüstəqilliyini elan etdi.

Səlcuq türklərinin hakimiyyəti dövründə də Azərbaycanın dövlətçilik ənənələri aradan qalxmadı. Azərbaycanın quzeyində Şirvanşahlar dövləti yenidən dirçəlirdi. Şirvanşah I Fəriburz (1063-1096) səlcuq sultanlarına tabe olsa da, Şirvanşahların hakimiyyətinə tamamilə son qoyulmamışdı. Böyük Səlcuq hökmdarı Məlikşahın hakimiyyətinin sonuna yaxın Şirvan-şahlar yenidən qüvvətlənməyə başlamışdılar. Bu zaman I Fəriburz, daha sonra isə onun oğulları II Mənuçöhr və I Afridun ölkəni müstəqil idarə edirdilər.

Səlcuq türklərinə qarşı mübarizədə gürcü çarları Şirvanşahlara yaxınlaşmağa çalışırdılar. Gürcü çarı Qurucu IV David (1089-1125) bu məqsədlə qızı Tamarı Şirvanşah I Afridunun oğlu III Mənuçöhrə vermişdi (1111). Şirvanşahlarla qohumluğun digər bir səbəbi də gürcü taqavorlarının Azərbaycanın qərb torpaqlarını ələ keçirmək istəyi ilə bağlı idi. Geniş xarici siyasət planlarına malik olan gürcü çarı başqa bir qızını Bizans imperatoru Aleksey Komninin oğluna ərə vermişdi. Çar Davidin özü isə Səlcuqlara qarşı güclü müttəfiq qazanmaq məqsədilə Qıpçaq türklərinin hökmdarı Atrakın qızına evlənmişdi. O, səlcuq türklərinə qarşı qoymaq üçün Qafqazın şimalında Gürcüstana 45 min ailə və ya 225 min Qıpçaq türk döyüşçüsü köçürmüşdü.

**Araşdırdı: Tahir Süleyman**

# İtirdiyimiz tarixi yurdlar: ZƏNGƏZUR

Bu gün Ermənistan Respublikasının ərazisində qalan Zəngəzur tarixi Azərbaycan torpağıdır.

Tarixi mənbələrdə, müxtəlif səyyahların yazılarında göstərilib ki, Zəngəzur Azərbaycanlıların qədim yurd yeri olub. Zəngəzurdakı Azərbaycan mənşəli toponimik adların çoxluğu da bu fikri təsdiqləyir. XVIII əsrdə Zəngəzur mahalının ərazisinin böyük hissəsi Qarabağ xanlığının, bir hissəsi isə Naxçıvan və İrəvan xanlığının tərkibində olub. Zəngəzur mahalı Çar Rusiyası dövründə Gəncə (Yelizavetpol) quberniyasının tərkibində olub. XX əsrin əvvəllərində Zəngəzur mahalında **149 azərbaycanlı** kəndi, **191 kürd kəndi** və **81 erməni** kəndi var idi.

Zəngəzur mahalının tarixi ərazisi qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları ilə əhatələnmiş geniş bölgə olub.

Zəngəzur mahalı bir neçə bölgədən ibarət olub: Qafan, Gorus, Qarakilsə (Sisian), Mehri, Zəngilan, Qubadlı, Laçın.

* * *

1918-1920-ci illərdə Zəngəzur Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi olub.

Həmin dövrdə Zəngəzur qəzası Şuşa, Cavanşir, Cəbrayıl qəzaları ilə birlikdə Qarabağ general-qubernatorluğuna daxil idi.

Eyni zamanda, həmin dövrdə Ermənistan (daşnak) Respublikası Zəngəzurla bağlı torpaq iddiaları irəli sürüb. Bölgədə münaqişə, silahlı toqquşmalar olub. 1920-ci il 28 apreldə Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra Zəngəzur Azərbaycanın tərkib hissəsi kimi ayrıca inzibati bölgə - qəza olub.

Bu vaxt Ermənistan (daşnak) Respublikası Zəngəzuru anneksiya etmək üçün silahlı mübarizəni davam etdirirdi. Bölgənin böyük hissəsi erməni qüvvələrinin faktiki nəzarəti altında idi. Eləcə də Qarabağın dağlıq hissəsində erməni qüvvələrinin hücumları davam edirdi. Azərbaycan SSR hökuməti (Müvəqqəti İnqilab Komitəsi) 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləməsini tələb etmişdi.

Bu arada bolşevik Rusiyası Azərbaycanın ardınca Ermənistanın da sovetləşməsi üçün erməni əhalisini müxtəlif şirnikləndirici addımlarla ələ almaq istəyirdi. Bu şirnikləndirici addımlar isə Azərbaycan ərazisinin bir hissəsinin Ermənistana verilməsi ilə bağlı idi. Mikoyan başda olmaqla erməni liderləri bolşevik Rusiyasının rəhbəri Lenini inandırmağa çalışırdılar ki, Zəngəzurun (eləcə də Naxcıvanın və Qarabağın) Ernənistana verilməsi erməni xalqının sovet hakimiyyətinə inamını artıra bilər.

Lenin tərəfindən Zaqafqaziya üzrə fövqəladə səlahiyyətli şəxs (faktiki Qafqaz canişini) təyin olunmuş Orconikidze də bu məsələdə ermənilərə dəstək verirdi.

Rusiyanın xarici işlər naziri Çiçerin 1920-ci il iyunun 2-də Orconikidzeyə məktubunda bu məsələ ilə bağlı yazırdı: "Daşnak (Ermənistan) ilə hökuməti ilə kompromisə nail olmaq bizə vacibdir".

* * *

1920-ci il 10 avqustda Rusiya K(b)P-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək bərədə qərar çıxardı, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olundu.

Bolşevik Rusiyası Azərbaycan torpaqları hesabına Ermənistanı şirnikləndirmək və sovetləşdirmək siyasəti Azərbaycanın kommunistləri tərəfindən etiraz doğurdu.

Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin sədri Nərimanov buna qarşı çıxaraq Leninə məktub yazdı. Nərimanov yazırdı ki, Mərkəzin çıxardığı qərarlar Azərbaycan əhalisi arasında Rusiyaya və sovet hökumətinə inamı sarsıda bilər: "Zəngəzur və Qarabağın neytrallaşdırılması, yaxud daşnaklara verilməsi… (Azərbaycan müsəlman əhalisi tərəfindən) xəyanət sayılacaqdır… Müsəlman kütlələr Sovet hakimiyyətinin Azərbaycanın ərazi bütövlüyünü qorumamasını satqınlıq, ermənipərəstlik yaxud sovet hakimiyyətinin zəifliyi hesab edəcəklər…"

("К истории образования Карабахской автономной области Азербайджанской ССР. 1918-1925. Документы и материалы. Баку, Азернешр, 1989, с.56 ).

Lakin bu etirazların faktiki nəticəsi olmadı. Çünki Azərbaycanın sobet rəhbərliyində də ermənilər güclü qüvvəyə malik idilər.

Bu arada bolşevik Rusiyası Azərbaycanın sovet hökuməti ilə və tezliklə qurulması gözlənilən Ermənistan sovet hökuməti ilə ikitərəfli sazişlər hazırlayırdı.

Azərbaycan sovet hökuməti bu sazişdə ərazi bütövlüyü məsələsinin təmin olunmasına da ümid bəsləyidi. Erməni komministləri də Zəngəzur, Naxçıvan və Qarabağ məsələsinin öz xeyirlərinə həllini gözləyirdilər.

1920-ci il noyabrın 29-da Ermənistnda (Yerevanda) sovet hakimiyyətinin qurulduğu elan olundu, hərçənd bölgələrdə daşnak hökuməti hələ tam süqut etməmişdi. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu.

Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasında 3-cü məsələ kimi "Ermənistanda İnqilab Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin elan olunması haqqında teleqramı" müzakirə edildi və qərar çıxarılmışdı.

AK(b)P MK Siyasi və Təşkilat bürolarının bu birgə iclasının (30.XI.1920) qəbul etdiyi "tarixi" qərarlara aydınlıq gətirmək məqsədilə orada iştirak edənlərin tərkibinə də mütləq diqqət yetirilməlidir: Q.Orconikidze, Sarkis (S.Ter-Danielyan), Y.Stasova, Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov. İclasın qərarının "v" bəndində yazılırdı: "… Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir. Qərarın başlıca məqsədi onun mərkəzi bəndində ("q") öz əksini tapmışdı. Orada deyilirdi ki, Zəngəzur və Naxcıvan sovet Ermənistanın tərkibinə keçirlər.

Digər bəndlərdə isə yazılırdı:

d) Qarabağın Dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir;

e) Sovet Azər baycanı sovet Ermənistanı ilə qırılmaz hərbi və təsərrüfat ittifaqı bağlayır (o cümlədən neft haqqında göstərilsin).

Qərarda həmçinin ("j" və "i" bəndləri) Nərimanova bütün bunlar barədə bəyanat hazırlamaq və onu Bakı Sovetinin plenumunda elan etmək tapşırılırdı.

S.Orconikidzenin təkidi ilə tarixin qara səhifəsinə düşəcək bu bəyanatı məhz N.Nərimanov elan etməli idi. Nərimanov qərarın əleyhinə idi, xüsusilə Naxcıvanla bağlı məsələyə qəti qarşı çıxırdı. Zəngəzurun isə bütünlüklə deyil, erməni əhalisinin çoxluq təşkil etdiyi qərb hissəsinin Ermənistana verilməsini mümkün sayırdı. Qeyq edək ki, erminilərin 1918-ci ildə Zəngəzurda həyata keçirdiyi qırğınlar nəticəsində burada azərbaycanlı əhalisinin sayı kəskin azalmışdı. 1920-ci il dekabrın 1-də Nərimanov Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasından qərarı barədə bəyanat verdi. Nərimanov həmin bəyanatda yalnız Zəngəzurdan bəhs edirdi.

-Nərimanovun Bakı Sovetinin iclasında verdiyi bəyanat (rusca):

«Советский Азербайджан, идя навстречу борьбе братского армянского трудового народа против власти дашнаков, проливающих и проливавших невинную кровь наших лучших товарищей-коммунистов в пределах Армении и Зангезура, объявляет, что отныне никакие территориальные вопросы не могут стать причиной взаимного кровопускания двух вековых соседних народов: армян и мусульман. Территория Зангезурского уезда предлагается Сов. Армении, и трудовому крестьянству нагорного Карабаха предоставляется полное право самоопределения; все военные действия в пределах Зангезура приостанавливаются, а войска Советского Азербайджана выводятся»

(Mənbə: газета «Коммунист», Баку, 2 декабря 1920 г.).




В тот же день в одноименной газете «Коммунист», выходившей в Ереванена армянском языке, был опубликован исковерканный перевод на армянский язык текста декларации, в котором рядом с Зангезуром упоминался Нахчыван, а фраза «предлагается Советской Армении» была переведена как «являются нераздельной частью Советской Армении».

-Zəngəzurun inzibati bölgüsü ilə bağlı Azərbaycan rəhbərliyində narazılıqlar isə özünü göstərməkdə idi. Məhz buna görə, Zəngəzurun Ermənistana verilməsi rəsmən elan olunsa da qəzanın onun idarəçiliyinə keçməsi dərhal baş verməmişdi.

AK/b/P MK Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli iclasında "Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili" haqqında qərar çıxarıldı.

Qərarda Zəngəzur bölgəsini 2 yerə: **Qərbi Zəngəzur qəzası və Şərqi - əhalisinin kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. əsasən kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi."**

(Bax: İ.Musayev "Azərbaycanın Naxzıvan və Zənqəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər)" monoqrafiyası, Bakı, 1998, c.284). Nəticədə Zəngəzur qəzasının 6.742 kvadrat verstlik ərazisindən (Bax: Скибицкий А.М. Карабахский кризис // Союз, 1991, №7; Гейдаров Н.Г. В горах Зангезура. Баку, 1986, с.3) 3.105 kv.versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv.verstlik hissəsi isə Ermənistana verilmişdi.

Onu da qeyd edək ki, Azərbaycanın tarix ədəbiyyatında bu problem kifayət qədər həllini tapmamışdır.

-Naxçıvana gəldikdə, həmin dövrdə bu bölgə Türkiyə qüvvələrinin nəzarətində idi və burada sovet hakimiyyəti faktiki mövcud deyildi. Məhz Türkiyənin qəti mövqeyi, eləcə də Nərimanovun Naxçıvanla bağlı prinsipial mövqeyini Mərkəzə (Leninə) bildirməsi Azərbaycanın bu tarixi torpağının Ermənistana verilməsinin qarşısını aldı. 1921-ci ilin oktyabrın 13-də imzalanan Qars müqaviləsində Naxçıvanın Azərbaycanın ərazisi kimi təsdiqlənməsi ilə Ermənistanın Naxçıvana yiyələnmək cəhdi boşa çıxdı.

-Qarabağa gəldikdə isə, 1921-ci ilin iyulun 4-də RK/b/P MK Qafqaz Bürosunun Stalinin iştirakı ilə keçirilən iclasında "Qarabağ məsələsi" müzakirə edilərək Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə daxil edilməsi barədə qərar çıxarılsa da, Nərimanov buna qəti etiraz etdi.

Qərarla razılaşmayan Azərbaycan kommunistləri ilə ermənipərəst qüvvələr (Kirov, Orconikidze, Myasnikov, Fiqatner) arasında ciddi ixtilaf yaranır.

Nəticədə səhərisi günü, 1921-ci il iyulun 5-də Qarabağ məsələsinə N.Nərimanovun qəti tələbi ilə yenidən baxaraq Dağlıq Qarabağı Azərbaycan SSR hüdudlarında saxlanması, Dağlıq Qarabağa Şuşa şəhəri inzibati mərkəz olmaqla geniş muxtariyyət verilməsi qərara alınır.

Bu qərar iki il sonra, 1923-cü il iyulun 7-də Azərbaycan SSR hökumətinin dekreti ilə rəsmiləşdi.

-Zəngəzurun Ernımistan SSR-ə verilmiş hissəsində Qafan, Gorus, Qarakilsə (Sisian) və Mehri rayonları yaradıldı.

Nəticədə Naxçıvan digər Azərbaycan torpaqlarından ayrı salındı. Zəngəzurun Azərbaycanda qalan hissəsində isə əvvəlcə **Kürdüstan qəzası**, sonra isə Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı.

Bax:

Административно-территориальное деление Армянской Советской Социалистической Республики(Источник: Советская Энциклопедия)

(1921-1928 гг) - 10 уездов:

1.Даралагезский - с. Кешишкенд.
2.Делижанский – Дележан.
3.Зангезурский - г. Герюсы (Горис)
4.Ленинаканский - г. Ленинакан
5.Лори-Бамбакский - г. Караклис.
6.Мегринский – Мегры.
7.Ново-Баязетский - Нор-Баязет.
9.Эриванский - г. Эривань.
10.Эчмиадзинский – Вагаршапат.

24.07.1929- 1.10.1930 (5 округов):

1.Зангезурский –
2.Ленинаканский -
3.Лорийский -
4.Севанский -
5.Эриванский –

1933-cü ildə Ermənistan SSR-in ərazisi rayonlara bölünür və Zəngəzur adı xəritədən silinir.

-Bax həmçinin:

Административно-территориальное деление Азербайджанской Советской Социалистической Республики(Источник: Советская Энциклопедия)

Май 1920 (20 уездов)

1.Агдамский - г. Агдам
2.Агдашский - г. Агдаш
3.Арешский - г.
4.Бакинский - г. Баку
5.Ганджинский - г. Ганджа
6.Геокчайский - г. Геокчай
7.Джебраильский - г. Джебраил
8.Джеванширский - г. ?
9.Джеватский - г. Джеват
10.Закатальский - г. Закаталы
11.Зангезурский - г. Зангезур
12.Казахский - г. Казах
13.Карягинский - г. Карягино
14.Кубинский - г. Куба
15.**Курдистанский** - г. Абдалляр
16.Ленкоранский - г. Ленкорань
17.Нухинский - г. Нуха
18.Сальянский - г. Сальяны
19.Шемахинский - г. Шемаха
20.Шамхорский - г. Анненфельд

1922.Зангезурский уезд упразднен.

# Kürdlər və Kürdüstan

## Kürdlərin coğrafiyası və yerləşməsi

**(Əvvəli ötən sayımızda)**

Kürd həyatının ən yeni və olduqca yaxın müşahidəçisi Soan haqlı olaraq deyir: «Daimi təhlükə kürdlərdə şübhə, cəsarət, müstəsna çeviklik, zireklik və yüksək inkişaf etmiş müşahidəçilik yaratmışdı. Sonuncu keyfiyyət mənim müşahidələrimlə də təsdiq olunur.»

1) Özü Gorusdan olan kürddür. Həmçinin Türkyədə İsmayıl Haqqı Paşa keçən əsrin 70-ci illərində itaətsiz kürdləri tabe etdirmişdi (sakitləşdirmişdi)

Üç ildən sonra mən həimn yerlərə bir də gələndə məndən soruşdular ki, bəs köhnə atım hanı və onun özümün də çoxdan unutduğum əlamətəlrini xatırlayırdılar. Əbəttə, bu, yeni təəssüratların azlığı, bu səbəbdən də qavramaq qabiliyyətinin kütləşməsilə izah olunur. Kürdlərdə təzə adamlara diqqətlə, iti nəzərlə bpaxmaq adəti var. Hər dəfə məndə belə bir təəssürat yaranırdı ki, üzümə dikilmiş onlarla göz şəklimi çəkib xatirələrinə əbədi həkk etdilər.

Kürdlər qətiyyən süst və küt deyillər. Təhsili, maarifi inkişaf etdirmək üçün onlara imkan düşmür.

1. Qismən də onların təbəqəsinə ancaq hərbi məşqlər münasibdir – deyən başçıların xurafatı günahkardır. Ona görə də gündə iki yüz dənə patron atan, arada isə ancaq dördnala öyrədilmiş öz kiçik dağ atlarını çapırlar. Bir fürsət düşən kimi kürdlər oxumaqda tez uğurlar qazanırlar. Onlar yaxşı linqvistdirlər və əksəriyyəti türkcə, farsca danışırlar. Uzun illər sərt sərhəd ucqarlarına atılmış bir çox kürd zabitləri məktəbdə keçdikləri fransız dərsini yada salır və bizə bir neçə fransız sözü deməyə çalışırdılar. Oskar Mann Souç – bulaqda işləyəndə onula məşğul olan Mirzə Cavad adlı biri tez almanca danışmağı öyrəndi və sonra Berlinə gedib müxtəlif idarələrdə Kürdüstan haqqında almanca populyar mühazirələr oxumaqla pul qazanmağa başladı. Elə həmin Sour-bulaqda bir-iki dəfə Nijni yarmarkasında olmaqla rus danışıq dilini çox gözəl mənimsəmiş kürdü gördüm. Konstantinapolda və xaricdə oxuyan kürdlər haqqında isə deməyə ehtiyac yoxdur. Onlar öz türk kolleqalarından heç nə ilə fərqlənmirlər.

1) Keçmiş zamanlarda kürdlər müsəlman aləminə bir sıra alim (Əbül Fidi, İdrisi), ilahiyyatçı və şair vermişdir. Lerx və Marr əsərləri.

2) Bununla onlar artmaqda məharət göstərirlər. Mən məşhur Sımkonun patronun boş gilizini ağacın (əsən) yellənən budağına asıb on beş metrdən onu düz ortasından vurduğunu gördüm.

Kürd ağlının itiliyi doğma təbiətə məhəbbətdə də özünü göstərir. Coğrafiyaşünas üçün Kürdüstan həsrəti çəkilən yerdir. Burada elə bir dağ, tənha ağac. növü yoxdur ki, ona hər hansı bir ad verilməmiş olsun. 1914-cü ildə biz hələ cənubda olanda ərəblərdən, lurlardan bir silsilə sıra dağın, ya kiçik bir çayın adını bilməyə ağlasığmaz çətinliklərlə nail olurduq. Ancaq Kürdüstana düşən kimi mənzərə dəyişdi. Qoyun-keçidən ibarət əlvan sürü otaran oğlandan soruşanda o, həvəslə danışmağa başladı «Bax. Bu daşın üstündə bir qadın canavarlardan xilas olub. İki düşmən qoşunun qarşılaşdığı o biri daş isə bu səbəbə görə parçalanıb. Qoşun başçılarının hərəsi bəd nəzəri ilə məşhur olan kəşfiyyatçını irəli gönədirir ki, düşməni gözə gətirsin. Təsadüfən kəşfiyyatçılar qarşılaşırlar və güclərini sınamaq qərarına gəlirlər. Biri daşa baxır. Daş iki bölünür, o biri öz rəqibinə baxır, rəqibinin gözü tökülür və s…

Kürdlər zarafatı sevirlər, yenilikləri öyrənib bilməyi sevirlər, öz azad həyatalrını tərifləməyi, şəfqəti sevirlər. Öz azadlıqları ilə fəxr edir və onun qəbul olunmasını çox qiymətləndirirlər.

Bu vaxta qədər kürdlərin həyat və məişətini sakit öyrənənlər az olub. Kürdləri şəx-



В. Ф. Минорскій

КУРДЫ.

